Müraciətlərin 985-i telefonla, 88-i elektron poçt vasitəsilə qəbul edilib. Müraciətlərin böyük əksəriyyəti sorğu xarakterli olub. Sorğuların çoxu təhsil haqqında sənədlərin verilməsi, ümumi təhsil məktəblərinə və peşə liseylərinə müəllimlərin müsabiqə yolu ilə işə qəbulu, növbəti dərs ilindən müəllimlərin dərs yükü normaları, müəllimlərin yaş senzi, istedadlı şagirdlər arasında keçirilmiş olimpiadanın nəticələri və beynəlxalq olimpiada qaliblərinə verilən güzəştlərlə bağlı olub. Xaricdə təhsil, xarici ölkələrin təhsil müəssisələri tərəfindən verilmiş təhsil sənədlərinin tanınması, ümumi təhsil məktəbləri müəllimlərinin əmək haqqının hesablanması, təhsil sənədlərinin alınması, ümumi təhsil məktəbi məzunlarının təhsildə qazandıqları uğurlara görə medallarla təltifi qaydaları da müraciətlərdə əksini tapan məsələlərdir. Bütün sorğular "Qaynar xətt" xidməti tərəfindən qeydə alınaraq cavablandırılıb.

Bir sıra müraciətlərdə ümumi təhsil, internat, orta-ixtisas və ali təhsil müəssisələrindəki bəzi problemlərdən bəhs olunur. Bu qəbildən olan 29 müraciət əsasında araşdırmalar aparılıb, mövcud problemlərin aradan qaldırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilib.

Ötən ay "Qaynar xətt" xidmətinə daxil olan şikayət məzmunlu müraciətlərin 4-ü Bakı şəhərindən, 7-si Abşeron, 1-i isə Saatlı rayon ümumi təhsil məktəbləri ilə əlaqədar olub. Müraciətlərdə şagirdlərin illik qiymətlərinin çıxarılması, təhsil sənədlərinin doldurulması və məzunlara verilməsi sahəsində çatışmazlıqlar, məktəb rəhbərlərinin yol verdikləri nöqsanlar, habelə digər məsələlər öz əksini tapıb.

Cari ilin iyununda "Qaynar xətt" xidmətinə xüsusi internat məktəbi və uşaq yaradıcılıq mərkəzinin hər birindən 1 şikayət məzmunlu olmaqla 2 müraciət daxil olub.

Təhsil Nazirliyinin ali və orta ixtisas təhsili müəssisələrində 2011-2012-ci tədris ilində "İmtahan sessiyasının təşkili və keçirilməsi barədə" 25 may 2012-ci il tarixli, 988 saylı əmrinin icrası ilə bağlı "Qaynar xətt" xidmətinə qeyd olunan təhsil müəssisələrindən daxil olan müraciətlərin operativ şəkildə araşdırılması təmin edilib. Bu da ali və orta ixtisas təhsili müəssisələrində yay imtahan sessiyasında tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı və obyektivliyi təmin etməyə, yarana biləcək neqativ halları aradan qaldırmağa və digər müvafiq tədbirlərin həyata keçirilməsinə kömək edib.

2011-2012-ci tədris ilinin yay imtahan sessiyasında Təhsil Nazirliyinin "Qaynar xətt" xidməti tərəfindən ali və orta ixtisas təhsili müəssisələrindən 15 müraciət qəbul edilib. Onlardan 10-u dövlət, 4-ü özəl ali təhsil, 1-i orta ixtisas təhsili müəssisələri ilə əlaqədardır. Həmin müraciətlər ali məktəblərdə Boloniya sisteminin tətbiqi, semestr imtahanlarının test üsulu ilə təşkili, pedaqoji və istehsalat təcrübəsinin aparılması, magistratura təhsili, tələbələrin semestr və dövlət imtahanlarına buraxılması, təhsil haqqının ödənilməsi qaydaları, təqaüdlərin gecikdirilməsi və digər məsələlərlə bağlı olub.

İmtahan sessiyasının gedişi ilə əlaqədar Azərbaycan Müəllimlər İnstitutunun Mingəçevir filialı, Azərbaycan Dövlət İqtisad Universiteti, Sumqayıt Dövlət Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti və digər ali təhsil müəssisələrindən daxil olan müraciətlərdə tələbələr daha çox aldıqları qiymətlərdən narazılıqlarını bildirib, apelyasiya qaydasında qiymətlərinin yüksəldilməsinə köməklik göstərilməsini xahiş ediblər. Bununla əlaqədar Təhsil Nazirliyinin müvafiq qurumlarının əməkdaşları müraciət daxil olmuş ali təhsil müəssisələrinin və QHT-lərin nümayəndələri ilə birgə araşdırmalar aparıb və tələbələrin biliyinin obyektiv qiymətləndirilməsi təmin edilib.

Özəl ali təhsil müəssisələrindən daxil olan 4 müraciətdə tələbələrin imtahanlara buraxılmaması, təkrar imtahanlara rüsum tələb olunması, imtahanın keçirilməsi qaydalarının pozulması və məzunlara diplomların verilməməsi ilə bağlı yaranmış çətinliklər öz əksini tapıb.

Qeyd olunmuş müraciətlər üzrə aparılmış araşdırmalarla bağlı tədbirlərin həyata keçirilməsi üçün müvafiq struktur bölmələrə məlumatlar verilib, gələcək fəaliyyət istiqamətlərində belə nöqsanların qarşısının alınması tövsiyə olunub.